Kredo 2021.- 15 sentyabr.- S.16.

# Paşa Şərif oğlu Əfəndiyev



Azərbaycan folklorşünaslığına ağır itgi üz vermişdir. Folklorşünaslığın sonuncu magikanı filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Əfəndiyev Paşa Şərif oğlu uzun sürən xəstəlikdən sonra 2 sentyabr 2021-ci ildə 93 yaşında vəfat etmişdir. O, 1928-ci ildə Qax rayonunun İlisu kəndində xalq müəllimi ailəsində anadan olmuş, 1946-cı ildə Qax rayonunun mərkəzində nümunəvi orta məktəbi medalla bitirmişdir. 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə qurtarmışdır. Elə həmin ili məşhur alim və yazıçı Mikayıl Rəfili onu özünə aspirant götürmüşdür. 1955-ci ildə respublikamızda ilk dəfə dünya şöhrətli dastanımız «Koroğlu» haqqında namizədlik dissertasiyası müdafiə etmişdir. 1974-cü ildə isə yenə respublikamızda ilk dəfə «Azərbaycan folklorşünaslığının tarixi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. İlk dəfə dünya şöhrətli türk dünyasının repressiyaya uğramış Hənəfi Zeynallı, Salman Mümtaz, Vəli Xuluflu, Əmin Abid, Yusif Vəzir Çəmənzəminli kimi alimlərinin folklorşünaslıq fəaliyyəti tədqiqat obyektinə çevrilmişdir.

Paşa Əfəndiyev Azərbaycan Dövlət Pedaqoji Universitetində (keçmiş V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu) dil və ədəbiyyat fakültəsinin həm qiyabi, həm də əyani şöbələrində müxtəlif vaxtlarda dekan işləmiş, 16 il Azərbaycan ədəbiyyatı tarixi kafedrasına rəhbərlik etmişdir. Elmi kadrların hazırlanması üzrə müdafiə şuralarında 16 il elmi katib, sədr müavini vəzifələrini aparmışdır. Paşa Əfəndiyev respublikamızda ali məktəb tələbələri üçün Azərbaycan şifahi xalq ədəbiyyatından ilk dərsliyin müəllifidir. Paşa Əfəndiyev 30-a qədər dərslik, dərs vəsaiti, monoqrafiyalar çap etdirmişdir. Onun 200-ə qədər elmi-metodiki məqalələri vardır. «Cəfər Cabbarlı və xalq ədəbiyyatı» (1985), «Səməd Vurğun və xalq yaradıcılığı» (1992), «Xalqın söz xəzinəsi» (1985), «Dastan yaradıcılığı» (1999), «Azərbaycan folklorşünaslığı müntəxəbatı» (2000), «Azərbaycan folklorşünaslığının problemləri (4 cilddə), "Molla Cümə (həyat və yaradıcılığı)" (2017) və s. kitabları vardır.

O, 35 il böyük xalq aşığı Molla Cümənin şeirlərini toplamaqla məşğul olmuş, aşığın 4 kitabını çap eləmişdir. Son kitabı 2006-cı ildə Prezident Aparatı tərəfindən çap edilmişdir. 10 elmlər namizədi, 4 elmlər doktoru, magistrlər yetişdirmişdir.

Böyük folklorşünas alim gördüyü əvəzsiz işləri ilə nəsillərə bir örnək olacaq ömür yaşadı. Cismani baxımdan dünyasını dəyişdi, lakin apardığı araşdırmalarla (dərslik, dərs vəsaiti, monoqrafiyaları ilə) ədəbiyyata qədəm qoyan tələbələrin, doktorantların və folklorşünas alimlərin yol yoldaşıdır.

Allah Sizə rəhmət eləsin, Paşa müəllim!

Allah Sizə rəhmət eləsin, böyük alim!

***Mahmud ALLAHMANLI,***
***bir qrup həmkarları adından***